# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Müasir Azərbaycan Şərq-Qərb kontekstində və multikulturalizm**
Qrantın məbləği: **25 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Məmmədxanova Naidə Caməli qızı**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/42/5-M-40**
Müqavilənin imzalanma tarixi: **27 fevral 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01mart 2015-ci il – 01 mart 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)* Azərbaycan tarixən, daima Şərq və Qərb qovşağında körpü olmuşdur. Müxtəlif mədəniyyətlərin və xalqların mənəvi dəyərlərini özündə birləşdirən Azərbaycanın ən yaxşı nümayəndələri, öz növbəsində, qonşu ölkələrin mədəniyyətinin inkişafını bir çox istiqamətlərdə müəyyənləşdirmiş və təsir göstərmişdir. Digər tərəfdən, Azərbaycan öz ənənələri, tolerantlıq və ahəngdar milli-etnik münasibətlərin xüsusi modeli olan unikal ölkədir.<br>Azərbaycan, Şərq və Qərbin, müxtəlif mədəniyyətlərin qovşağında yerləşən zəngin mədəni və tarixi irsə malik geosiyasi bölgədir. Tarixin müxtəlif mərhələlərində ölkəmiz |

müxtəlif millətlərin, dini inancların və mədəniyyətlərin nümayəndələrinin vətəni olmuşdur. Müxtəlif millətlərin sərbəst və azad yaşaması, mədəniyyətinin qorunub saxlanması və orijinallığı üçün yaradılmış şərait Azərbaycan xalqının tolerantlığının, Azərbaycanda tarixi köklərə malik multikulturalizminin sübutudur.

Lakin bu gün tolerantlıq, digər mədəniyyətin qəbul edilməsi, multikulturalizm yalnız Azərbaycan xalqını fərqləndirən milli xüsusiyyət deyil, Azərbaycan dövlətinin siyasətidir. Qloballaşma dövründə, bütün dünyada milli dəyərlərin, ənənələrin və mədəniyyətlərin silinməsi müşahidə olunur. Buna rəğmən Azərbaycan, milli ənənələr və mədəniyyətlərin inkişafı üçün bütün şərtlərin qorunub-saxlandığı nadir ölkələrdən biridir.

Ümummilli lider H.Əliyev Azərbaycanda multikulturalizmin ənənəsini inkişaf etdirdi və onu keyfiyyət baxımından yeni səviyyəyə, siyasi müstəviyə gətirdi. Bu heç də asan deyildi, çünki Sovet İttifaqının süqutu və keçmiş  müttəfiq sovet respublikalarının parçalanması ilə, minlərlə azərbaycanlının həyatına son qoymuş erməni təcavüzü nəticəsində Azərbaycan bir milyondan çox qaçqın qazandı, ərazisinin 20 faizi tapdaq altına düşdü, Xocalı soyqırımı baş verdi. Bu, Azərbaycanda tolerantlıq ənənəsi üçün böyük sınaq oldu və onun əsaslarını zəiflədə biləcək mühüm amil ola bilərdi. Lakin bu baş vermədi, Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun müdrik dövlət siyasəti Azərbaycana yeni müsbət impuls verdi.

Ümummilli lider tərəfindən əsası qoyulmuş multikulturalizm siyasəti Prezident İlham Əliyev tərəfindən müasir dövrdə uğurla inkişaf edir.

Bu gün bütün dünyada ağır və faciəvi proseslər davam edir. Bu proseslər,  ilk növbədə millətlərarası, mədəniyyətlərarası və konfessiyalar arası münasibətlərə təsir göstərir. Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti sayəsində bu ənənələr Azərbaycanda qorunub saxlanılmaqla yanaşı, qlobal böhran dövründə də multikulturalizmin dövlət siyasətinin prioritet sahələrindən birinə çevrilməsi üçün mümkün olmuşdur.

Azərbaycan prezidenti İlham Əliyevin çıxışında qeyd olduğu kimi, мултикултурализм bizim həyat tərzimiz və dövlət siyasətidir. Bizim ölkəmizdə multikulturalizmin qədim ənənələri və tarixi kökləri  vardır. Qloballaşma əsrində  bütün dünyada milli dəyərlərin, milli ənənələrin və mədəniyyətlərin tarazlanması baş verir. Azərbaycan  milli mədəniyyətlərin, milli dillərin və ənənələrin inkişaf etdiyi nadir ölkələrdən biridir. Məhz buna görə 2016-cı ilin “Multikulturalizm ili”  elan olunması yalnız respublikamızda deyil, beynəlxalq miqyasda da böyük əhəmiyyət daşıyır. Elə buna görə bizim qrant proyektinin mövzusu aktualdı və zamanında sayılmalıdır.

Tədqiqatımızın mövzusu hərtərəfli olduğundan, tədqiqat çərçivəsi müxtəlif sahələrin qlobal şəkildə araşdırılmasını tələb edir. Bu isə bir araşdırmada mümkün deyil. Buna görə də, birgə fəaliyyətimizin məqsədi fikrimizcə, daha çox maraq doğuran və az tədqiq edilən bəzi aspektləri araşdırmaq və vurğulamaqdır.

Biz Azərbaycanın sosial-mədəni yaşam tərzinin iki versiyasının – ənənə və müasirliyin əlaqələrini əsas götürərək, məhz bu baxımdan Azərbaycan fenomenini tədqiq etmişik. Sadalananları nəzərə alaraq, biz bu mövzunu üç aspektdən nəzərdən keçirmişik. «Müasir Azərbaycan Şərq və Qərb kontekstində və multikulturalizm» qrant layihəsində üç istiqamət nəzərdə tutulmuşdur:

1) Azərbaycan multikulturalizmin mərkəzi kimi və onun Şərq mədəniyyətində əhəmiyyəti;

2) H.Əliyev fondunun mədəni və dini tolerantlığın inkişafında rolu;

3) Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri

Bu istiqamətlər üzrə aşağıdakı işlər yerinə yetirilmişdir:

1. İşin birinci hissəsi "Azərbaycan multikulturalizmin mərkəzi kimi və onun Şərq mədəniyyətində əhəmiyyəti" adlanır.

Azərbaycan bir sıra digər ölkələrdən fərqlənir. Ölkəmizdə, vahid milli mədəniyyətin olması ilə yanaşı, digər mədəniyyətlərin dərindən dərk olunması və anlayışla qəbul edilməsi vardır.

Tədqiqatın bu bölməsində Azərbaycanın fenomeninin vacib hissəsi, xüsusilə də azərbaycanlıların Yaxın Şərqin digər xalqlarının mədəniyyət, incəsənət, elm, ictimai fikrinin formalaşmasındakı rolu araşdırılır.

Tarix boyunca hər bir xalq, əvvəlcədən müəyyən edilmiş genetik potensiala malik olmuşdur. Bu müxtəlif sahələrdə – din və elmdən mədəniyyətə və incəsənətə qədər insanlığın aparıcı hissəsi olmaq üçün nəzərdə tutulmuşdur. Bu baxımdan, azərbaycanlıların nadir bir xüsusiyyəti vardır. Yəni, Tanrıdan elə yazılıb ki, xalqımız yalnız öz millətinin mədəni irsinə deyil, Yaxın Şərq xalqlarının elm və mədəniyyət tarixinə, Qərbin müasir tarixinə də öz töhfəsini vermişdir.

Şərqin, xüsusilə də müsəlman Şərqinin elmi fikri heç bir təqdimata ehtiyac duymur. Bu fikrə, məhz azərbaycanlılar dəyərli töhfələr vermişlər.

Bunlardan Bəhmənyar, Safi əd Din Urmavi, Mahmud Şabustəri, Xətib Təbrizi, Sirac əd Din Urmavi, Yusif Qarabaği və s. adlarını sadalamaq yerinə düşərdi.

Azərbaycanlılar regionun incəsənət və mədəniyyətinin formalaşmasına, xüsusən də fars ədəbiyyatının inkişafına töhfəsi də dəyərli və parlaq idi. Qeyd etmək lazımdır ki, Azərbaycan ədibləri farsdilli ədəbiyyatın hər bir üslubunun formalaşması prosesinə böyük töhfələr vermişlər. Bu məsələyə araşdırmada xüsusi diqqət yetirilir.

Qətran Təbrizi, sonradan isə "Azərbaycan" məktəbinin şairləri – Abul Ala Gəncəvi, Fələki Şirvani, Mücir əd Din Beyləqani (şair əslən Şirvanlı olmasa da, burada təhsil almışdır), Xəqani Şirvani və əlbəttə ki, Nizami Gəncəvi dünya şeirinin qızıl fonduna daxil edilmişlər.

Tədqiqat işində Təbriz incəsənətinin ustalarının dünya mədəniyyət xəzinəsinə verdiyi töhfələr dərindən təhlil edilmişdir.

Müdriklik, səbr və cəsarət, incə gözəllik hissi, mədəniyyət anlayışına hörmət xüsusiyyətlərini Azərbaycan xalqı əsrlər boyu sınaqdan keçirmiş və itirməmişdir. Azərbaycan və azərbaycanlılar, Şərq mədəniyyətinin, incəsənət və elmin, ictimai fikrinin formalaşmasında mühüm rol oynamışdır. Tariximizin müxtəlif mərhələlərində həmvətənlərimiz dünya irsini incəsənətin ən parlaq nümunələri ilə zənginləşdirmişdirlər. Bu nümunələr hələ də bəşəriyyəti təəccübləndirməkdədir.

2. Tədqiqatın "Mültikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri" adlanan üçüncü hissəsi bitirilmişdir. Tədqiqatda qeyd olunur ki, ədəbi prosesin qloballaşması müxtəlif xalqların mənəvi dəyərlərinin birləşməsinin təzahürüdür. Bu ədəbi prosesin qloballaşması ümumbəşəri dəyərlərin təsdiqinə aparır. Məhz bu ümumbəşəri ədəbiyyat hər bir əsərdə dərin milli xüsusiyyətləri qoruyub saxlayaraq, başqa xalqların bədii təcrübəsindən bəhrələnməyə imkan yaradır. Bu tədqiqatda bizim əsas məqsədimiz мултикултурализм meyarlarını bu və ya digər mənada əks etdirmiş, Azərbaycan yazıçılarının bədii əsərlərinin tənqidi təhlili və müasir Azərbaycan ədəbiyyatının müxtəlif janrları və istiqamətlərində multikulturalizmin təzahürünü göstərməkdir.

Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri XX-XXI əsrlər Azərbaycan ədəbiyyatı nəzəriyyəsi və multikulturalizm təcrübəsində öz əksini tapmışdır.

Qurban Səidin “Əli və Nino”, İsmayıl Şıxlının “Dəli Kür”, Lev Əsgərovun “Xüsusi əlamətləri yoxdur” əsərləri, Çingiz Abdullayevin bəzi romanları, Aytən Aqşinin “Sınmış butulkalar üzərində vals”, Z.Səfərbəyovun “Mənim lənətlənmiş dünyam”, Anarın “Gecə düşüncələri” və bir sıra digər əsərlər tənqidi təhlilə cəlb olunmuşdur. Səciyyəvidir ki, bu əsərlər yazıçılar tərəfindən müxtəlif (hekayələr, novelistik, avtobioqrafik, tarixi-fantastik və siyasi-detektiv istiqamətli povest və romanlar) janrlarda yaradılmışdır. Bu isə, bir tərəfdən, müəlliflərin parlaq istedadı haqqında, digər tərəfdən isə çağdaş multikulturalizmin şərhi üçün geniş imkanlar yaradır.

Tədqiqatın “H.Əliyev fondunun mədəni və dini tolerantlıq inkişafında rolu” adlanan üçüncü hissəsi bitirilmişdir və redaktə prosesindədir. Bu gün dünya özünün heç də yaxşı günlərini yaşamır. Dünya birliyi yer üzündə sülhün və mərhəmətin bərqərar olması üçün nə qədər çalışsa da, qloballaşmada olan dünyanın, eləcə də get-gedə artan dini fundamentallığın, total savadsızlığın və tarixi adət-ənənələrə qarşıdurmaların artmasının şahidi olur.

XXI əsrdə tolerantlıq dünya birliyinin mənəvi dəyərlərindən biri olmuşdur. “Tolerantlıq” termini XXI əsrdə artıq siyasi, sosial, mədəni prosseslərin və tendensiyaların başa düşülməsi üçün açar anlamına dönür. Yalnız tolerantlıq prinsiplərinə əsaslanaraq müasir plüralist və multikulturalist dünya öz varlığını davam etdirə bilər. Bu mənada Azərbaycan harmonik milli-etnik münasibətlərin təcəssümü olan ölkə modelidir. Burada müxtəlıfliyin inkişaf və təhlükəsizlik faktoruna çevrilməsinin unikal təcrübəsi vardır. Tədqiqatda qeyd olunur ki, Azərbaycan milli ənənələri ilə yanaşı xüsusi tolerantlıq modeli olan bir ölkədir. Burada milli-etnik münasibətlər harmonik vəhdət daşıyır. Ümummilli lider H.Əliyev müxtəlif xalqların mənəvi dəyərlərinin birləşməsinin keyfiyyət etibarı ilə yeni – siyasi müstəviyə çıxartdı. Dahi liderin əsasını qoyduğu multikulturalizm siyasəti hal-hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Və artıq multikulturalizm bizim xalqın həyat tərzinə çevrilmişdir. Mədəni müxtəlifliyin daha bir təcəssümü də 2004-cü ildən fəaliyyət göstərən, başda Azərbaycan Respublikasının birinci xanımı, Yunesko və İseskonun xoşməramlı səfiri Mehriban xanım Əliyeva olmaqla H.Əliyev fondudur. Fondun əsas məqsədlərindən biri də qloballaşmada olan dünyada dini tolerantlığın təsdiqi, milli-

| | |
|---|---|
| | mənəvi dəyərlərin qorunub saxlanılmasıdır. Məhz bu tədqiqatın əsas obyektlərindən birini təşkil edir.<br>Multikulturalizm və milli kimliyin qorunması müasir dövrdə vacib və aktualdır. Müasir Azərbaycanın bu sahədə əldə etdikləri nailiyyətlər, yəni bütün səviyyələrdə balansın saxlanılması qabiliyyəti, hərtərəfli tədqiq olunmalı unikal bir təcrübədir. Bu tədqiqat Azərbaycanın fenomeninin, onun unikal təcrübəsinin dərk edilməsinə, qloballaşma dövründə milli kimliyin qorunub saxlanılmasına öz töhfəsini verir. Azərbaycanda baş verən bu proseslərin öyrənilməsi çox vacibdir. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)* *100%* |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | Azərbaycanın dünyada multikulturalizmin mərkəzi kimi tanınmasında bu qrant layihəsinin öz töhvəsi vardır. Azərbaycanda normal multikultural atmosfer mövcuddur. Burada hələ qədim zamanlarda müxtəlif konfessiyalar, etnik qurumların sülh və dostluq şəraitində birləşməsi müşahidə olunmuşdur. Azərbaycanda məhz müstəqillik dövründə, müxtəlifliyə yönəlmə öz təzahürünü tapır. Bu dövrdə şairlərin, yazıçıların, alimlərin əsərlərində yeni siyasai ahəng alır. Buna görə də heç təsadüfi deyil ki, Avropanın bir sıra ölkələrində elə həmin Fransa, İngiltərə, Almaniyada multikulturalizmin iflasa uğramasını rəsmi bəyan etdikləri zaman, Azərbaycanda multikulturalizm dövlət siyasətinə çevrilir. Multikulturalizmin və digər mədəniyyətin Azərbaycan ədəbiyyatında açıq şəkildə qəbul edilməsi qrant layihəsinin ən vacib prioritetlərindən biridir. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)* |

Prof.Məmmədxanova N.C.

1. Творчество Анара как квинтэссенция идей мультикультурализма. (К вопросу о западно-восточном образе мироощущения эссе) // Dil və ədəbiyyat №6, Bakı, ADU.2015, s.164-169.
2. Творчество А.Церетели в восприятии азербайджанского поэта-переводчика А.Сиххата // IX International Symposium Contemporary Issues of Literary Criticusm. Tradition and Contemporary Literature (The symposium will pay tribute to the 100th anniversary year of the death of Akaki Tsereteli). Tbilisi: Iv.Javakhishvili Tbilisi State Univertity, 2015, s.170-175.
3. Modernizm in creative work of Kamal Abdulla // X International Symposium Contemporary Issues of Literary Criticusm. Tradition and Contemporary Literature (The symposium will pay tribute to the 100th anniversary year of the death of Akaki Tsereteli). Tbilisi: Iv.Javakhishvili Tbilisi State Univertity, 2016.
4. Аббас Сиххат и его романтическое мировосприятие творчества Н.Бараташвили // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş VII Beynəlxalq elmi konfransın materialları. 2016-ci il. Bakı: Mütərcim.
5. "Əli və Nino" Şərq və Qərb kontekstində // Dil və ədəbiyyat №6, Bakı, ADU.2016.

A.Məmmədova

1. Духовное пространство. Культурная и религиозная толерантность // Каспий. 11 декабря. 2015. Афет Ислам (Афет Мамедова) http://www.kaspiy.az/news.php?id=34741#.W6jSP_llM1k
2. Территория толерантности .Азербайджан на страже мультикультуральных ценностей. Каспий. 27 января. 2016. Афет Ислам (Афет Мамедова) http://www.kaspiy.az/news.php?id=36465#.W6jTBfllM1k

Dos. S.A.Mirbağırzadə

1.“Восток и Запад в романе «Али и Нино»”(birinci hissə) // Elm, № 14, 2015.

2. “Восток и Запад в романе «Али и Нино»”(ikinci hissə) // Elm, № 15, 2015.

Dos. Quliyeva B.

1. Азербайджанские поэты в средневековой персидской литературе // Цивилизация. 2016. №1.
2. Азербайджанские поэты в литературе Ирана XIX-XX вв. // Цивилизация. 2016. №2.

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)* |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |

Layihə üzrə «Elm çırağı» ictimai birliyi tərəfindən, xüsusi ilə də onun sədri N.C.Məmmədxanovanın rəhbərliyi və təşəbbüsü ilə «Azərbaycan Şərq-Qərb kontekstində» silsilə beynəlxalq konfranslar keçirilmişdir:

1.Azərbaycan və Yunanıstan: elm və mədəniyyət müstəvisində (Yunanıstanın səfirliyinin iştirakı ilə).

2.Azərbaycan və Niderland: elm və mədəniyyət müstəvisində (Niderland krallığının səfirliyinin iştirakı ilə)

3.Azərbaycan və Mərakeş: Şərq-Qərb kontekstində (Mərakeş səfirliyinin iştirakı ilə)

Layihə dövründə «Elm çırağı» ictimai birliyi tərəfindən, xüsusi ilə də onun sədri N.C.Məmmədxanovanın rəhbərliyi və təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti

| | |
|---|---|
| | yanında "Bilik" fondu ilə birgə Bilik günü münasibəti ilə 160 saylı klassik gimnaziyada multikulturalizmə həsr olunmuş elmi seminar keçirilib və orada prof. N.C.Məmmədxanova 11-ci sinif şagirdləri qarşısında "H.Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir" mövzusunda çıxış etmişdir.<br>Layihə dövründə 2015-ci il noyabr ayının 27-də ictimai birliyin sədri prof.N.C.Məmmədxanova "Müqayisəli ədəbiyyat və mədəniyyət: Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarları" adlı VI Beynəlxalq elmi konfransında iştirak edib.<br>Layihə dövründə «Elm çırağı» ictimai birliyi tərəfindən, xüsusi ilə də onun sədri N.C.Məmmədxanovanın rəhbərliyi və təşəbbüsü ilə 2015-ci il dekabr ayının 5-də "Azərbaycan-Kolumbiya elm və mədəniyyət müstəvisində" adlı "Şərq-Qərb"mövzusuna həsr olunmuş elmi seminar keçiriləcək.<br>Layihənin rəhbəri prof. N.C.Məmmədxanova 5 fevral 2016-cı il BSU-nun Azərbaycan multikulturalizm kafedrasının nəzdində elmi-metodik şuranın yaradılmasına iştirak edib və üzv seçilib.<br>Layihənin rəhbəri prof. N.C.Məmmədxanova 8 fevral 2016-cı il "International winter school. Multiculturalizm as a lifestyle in Azerbaijan: learn, explore, share". The year of multiculturalism" açıq konfransda iştirak etmişdir. |
| **9** | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>Layihə mövzusu üzrə Bakı beynəlxalq multikulturalizm mərkəzində «Multikulturalizm və Azərbaycan multikulturalizmi üzrə mütəxəssis və jurnalistlərlə görüş (16 aprel 2015 il) keçirilmişdir.<br>Bakı multikulturalizm mərkəzində «Межкультурный диалог и азербайджанский мультикультурализм» dəyirmi masa (06 may 2015 il) keçirilmişdir.<br>Yuxarıda adı göstərilən tədbirlərdə layihənin rəhbəri prof. N.C.Məmmədxanova çıxışlar etmişdir.<br>Azərbaycan Respublikasının Prezidenti yanında "Bilik" fondu ilə birgə Bilik günü |

| | |
|---|---|
| | münasibəti ilə layihənin üzvləri Azərbaycan multikulturalizminə həsr olunmuş tədbirdə iştirak etmişlər. Yuxarıda adı göstərilən tədbirdə layihənin rəhbəri prof. N.C.Məmmədxanova "H.Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir" mövzusunda çıxış etmişdir.<br>Layihənin rəhbəri prof. N.C.Məmmədxanova dekabr 2016-cı il "Azərbaycan-Kolumbiya elm və mədəniyyət müstəvisəndə" adlı elmi seminarda "Azərbaycan Şərq-Qərb kontekstində" mövzusunda çıxış edilmişdir. |
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>«Müasir Azərbaycan Şərq-Qərb kontekstində və multikulturalizm» qrant layihəsinin rəhbəri prof. N.C.Məmmədxanova Bakı beynəlxalq multikulturalizm mərkəzinin üzvü seçilib |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>«Müasir Azərbaycan Şərq-Qərb kontekstində və multikulturalizm» qrant layihəsinin rəhbəri prof. N.C.Məmmədxanova Bakı beynəlxalq multikulturalizm mərkəzinin üzvü seçilib və Bakı Slavyan Universitetinin nəzdində yeni yaranan Multikulturalizm kafedrası ilə elmi əməkdaşlığa başlanıb.<br>Qrant layihəsinin rəhbəri prof. N.C.Məmmədxanovanın və layihə üzvlərinin bütün elmi konfranslarda iştirakını Azərtac işıqlandırmışdır. Qrant layihəsinin rəhbəri prof. |

N.C.Məmmədxanova "Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasının qərarı ilə istedadlı gənc alimlərin hazırlanmasında səmərəli fəaliyyətinə, dünya ədəbiyyatıtarixi, müqayisəli ədəbiyyatşunaslıq sahəsində apardığı uğurlu elmi tədqiqatlarına, dərs vəsaitlərinə, gənclərdə vətənpərvərlik hisslərinin aşılanmasında və filologiya elminin inkişafı tarixində göstərdiyi xidmətlərinə görə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı ilə təltif edilib.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
" __" _________ 201_-cü il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

____________________
*(imza)*
" __" _________ 201_-cü il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Məmmədxanova Naidə Caməli qızı

____________________
*(imza)*
" __" _________ 201_-cü il